# Rəhbərlik Üslubunun Qiymətləndirilməsi

**Bu qısa sorğu vasitəsilə, Avtoritar, Demokratik və Liberal ( Laissez-faire) rəhbərlik üslüblarının sizdə hansı səviyyədə olduğunu aşkar edə bilərsiniz. Qeyd etmək lazımdır ki, heç bir üslub, digərindən daha vacib, yaxud az əhəmiyyətli deyildir. Arqumentləri cavablandırarkən, ümumi təcrübənizi nəzərə alın. Sizə uyğun olan arqumentləri dairəyə alın, yekunda isə cavablarınızı təlimata uyğun toplayın.**

**Rəqəmlərin izahı:**

1 Heç razı deyiləm 2 Razı deyiləm 3 Neytral 4 Razıyam 5 Tamamilə razıyam



1. Əməkdaşlara ciddi nəzarət lazımdır, yoxsa işlərini görməyəcəklər.
① ② ③ ④ ⑤
2. Əməkdaşlar qərarvermə prosesinin bir parçası olmaq istəyirlər.
① ② ③ ④ ⑤
3. Mürəkkəb məqamlarda rəhbərlər əməkdaşlara şərait yaratmalıdır ki, onlar problemi özləri həll edə bilsin.
① ② ③ ④ ⑤
4. Ümumi olaraq demək olar ki, əhali arasındakı işçilərin əksəriyyəti tənbəldir.
① ② ③ ④ ⑤
5. Təzyiq göstərmədən istiqamət vermək ən yaxşı rəhbərlikdir.
① ② ③ ④ ⑤
6. Yaxşı rəhbər, əməkdaşlar öz işlərini görəndə onlara müdaxilə etməməlidir.
① ② ③ ④ ⑤
7. Bir qayda olaraq, hədəflərə çatmaq üçün, əməkdaşlara ya mükafat, ya da cəza verilməlidir ki, onlar motivasiya ola bilsinlər.
① ② ③ ④ ⑤
8. Əməkdaşların əksəriyyəti öz rəhbərləri ilə mütəmadi ünsiyyətdə olmaq və onlardan dəstək almaq istəyir.
① ② ③ ④ ⑤
9. Bir qayda olaraq rəhbər, şərait yaratmalıdır ki, əməkdaş öz işini özü qiymətləndirə bilsin.
① ② ③ ④ ⑤
10. Əməkdaşların əksəriyyəti özlərini işlə bağlı narahat hiss edir və istəqamətə ehtiyac duyurlar.
① ② ③ ④ ⑤
11. Rəhbər, əməkdaşlara kömək etməlidir ki, onlar işi tamamlamaq üçün məsuliyyət götürə bilsinlər.
① ② ③ ④ ⑤
12. Rəhbər, əməkdaşlara tamamilə azadlıq verməlidir ki, onlar problemləri özləri həll edə bilsinlər.
① ② ③ ④ ⑤
13. Hansı əməkdaşın mükafat alacağına ancaq rəhbər qərar verə bilər.
① ② ③ ④ ⑤
14. Əməkdaşın öz həqiqi istəyini və arzusunu tapmağa, rəhbər mütləq kömək etməlidir.
① ② ③ ④ ⑤
15. Bir çox məqamlarda əməkdaşlar, rəhbərin çox müdaxiləsini istəmirlər.
① ② ③ ④ ⑤
16. Ən effektiv rəhbərlər tapşırıq verir və proseduru aydın izah edirlər.
① ② ③ ④ ⑤
17. Əməkdaşlar əslində səriştəlidirlər və tapşırıq verilərsə işi yaxşı yerinə yetirirlər.
① ② ③ ④ ⑤
18. Ən yaxşısı əməkdaşlara müstəqillik verməkdir
① ② ③ ④ ⑤

1, 4, 7, 10, 13 və 16-cı arqumentlərin cavablarını toplayın **(Avtoritar)**

2, 5, 8, 11, 14 və 17-ci arqumentlərin cavablarını toplayın **(Demokratik)**

3, 6, 9, 12, 15 və 18-ci arqumentlərin cavablarını toplayın **(Liberal)**

| Bal | Balların izahı |
|---|---|
| 6-10 | Çox aşağı |
| 11-15 | Aşağı |
| 16-20 | Orta |
| 21-25 | Yüksək |
| 26-30 | Çox yüksək |



**Üslublar haqqında:**

**Avtoritar:** Əməkdaşlar qərarvermə prosesində iştirak etmirlər, bütün qərarlar rəhbər tərəfindən verilir
**Demokratik:** Qərarvermə prosesində əməkdaşların iştirakı təmin edilir, birgə qərar verilir.
**Liberal:** Qərarvermə məsuliyyəti birbaşa əməkdaşlara həvalə olunur, rəhbər isə ümumiyyətlə müdaxilə etmir.

Mənbə: Walumbwa, F., Avolio, B., Gardner, W., Wernsing, T., & Peterson, S. (2008). Authentic Leadership: Development and Validation of a Theory-Based Measure. Journal of Management, 34(1), 89-126. http://people.uncw.edu/nottinghamj/documents/slides6/Northouse6e%20Ch11%20Authentic%20Survey.pdf

APPLIED MANAGEMENT SOLUTIONS By EA